# BİR OVUC TORPAQ

*(Məcburi köçkün olmuş anam Mehniyar Həsənəli qızının əziz xatirəsinə ithaf edirəm)*



*Kamal ASLANLI*

Biləsuvardan keçib Parsabada, ordan da bizim tərəfdə işğal olunmuş torpaqlara baxmaq arzusu ilə yola çıxdım. Elə bilirdim doğma Qarabağ torpaqlarına gedirəm. Yol boyu uçmağa bircə qanadım çatmırdı. Bu səfərdə sanki uzaq yerlərə gedəcəkdim. Bu səfərdə torpaqlarımıza baş əyməli və o tayda anamın əmisi Hüseynin qəbrini tapmalı idim.

Bakıdan çıxandan iki saat sonra sərhədə yaxınlaşdıq. Sürücü pulları yığmağa başlasa da, mən hələ də qarşıma çıxacaq mənzərələri xəyalımda canlandırır, oraların nə gündə olacağını, o tayda kimlərlə görüşəcəyimi düşünür və pərişan təəssüratlar içində, öz xəyalımda idim. Saat ikinin yarısında sərhədə çatdıq. O tərəfə hər kəs bir məqsədə gedirdi; kimsə həkimə, kimsə ticarətə, kimsə də qohumlarının yanına xeyir-şərə.

Sərhədin girişində dayananda günorta vaxtı idi, günəş şəfəqlərini üstümüzə salmışdı. Elə hey tələsirdim ki, o taya keçim, ordakı insanlarla gö-rüşüm.

Sərhədin tam İran tərəfinə keçən kimi, bir dəstə kişi gələnlərə tərəf cumdu:

- “Baba, pulu verin dəyişim, vallah yaxşı dəyişirəm, mənə bircə manat qalacaq, Allah köməyin olsun, biz də burda ona görə durmuşuq”.

- “Nə pul, a kişi”? İcazə verin, nəfəs alım”, - deyib uzaqlaşdım.

Qəriblik hiss eləmədim o tərəfə keçən kimi, gördüm hamı bizim dildə yaxşı danışır, bəzi anlamadığım sözlər, ifadələr də vardı bu adamların danışığında. Amma bu insanlar mənə çox doğma göründü.

Sonra rahatlandım və maraqlı bir səfərin başladığını düşünərək məni gözləyən maşına doğru addımladım.

Bir kişi də cumdu mənə tərəf:

-“Ağa, pulun var, dəyişim?”

-“Ay kişi, dəyişmişəm, yoxumdur”, deyib məni gözləyən maşına əyləşdim.

Parsabada hələ altmış kilometr yol vardı. Siqaretimi ləzzətlə çəkərək pəncərədən ətrafa, əkin-biçin sahələrinə baxırdım. Əvvəlcə adi bir mənzərə kimi görünürdü mənə, lakin yenə də nədənsə qeyri-adi şeylər axtarır, elə hey ətrafa baxırdım, çox sakitlik idi ətrafda, bura da Biləsuvar idi. Xeyli yol getsək də, hələlik heç kim görünmürdü. Bir azdan yolüstü sağda iri bir dəyirman göründü. Çox təzə idi, elə bil hamıya əl eləyirdi ki, dən gətirin, üyüdüm. Kənd təndirinin ətri yadıma düşdü bir anlığa. Bizim kənddəki köhnə dəyirman yadıma düşdü. Rəhmətlik Əlif kişinin evinin yanındakı dəyirman; üstümüzə ağappaq, qar kimi un səpələnəndə sevinirdik ki, biz də işləyirik; kisələri boşaldanda və dolduranda dəyirmançıya kömək edirdik. Bir qədər sonra yaraşıqlı, səliqəli əkin yerləri başladı, buranın torpağı bizim taydakından heç fərqlənmirdi. İnsafən, burada zəhmətkeş insanların çox olduğu göz önündə idi. Parsabada yaxınlaşanda sıra ilə düzülmüş dükanlar göründü.

-“Əmi, nə fikirləşirsən”, maşında ön oturacaqda əyləşmiş Keykavos soruşdu.

- “Nə bilim e, yol bir az da uzana, çox baxam, görüm biz tərəfdəkilərdən yaxşı burda nə var, adamlar nə iş görür”.

O tərəfin Biləsuvarında kənd evləri bizimkilər kimidir, adamlar ot tayalarını evə yaxın saxlayır, yastı damlar elə bil bizim tərəfdəki adamlar tərəfindən tikilib. Deyilənlərə görə burda hər kəsin tarixi dədə-baba torpaqları var. Deyirlər burada torpaqlar tarix boyu nəsildən-nəslə keçir.

Parsabada çatan kimi hər yerdə hər şey başqa dildə olduğundan heç nə oxuya bilmədim. Bir qədər kədərləndim, iri qırmızı hərflərlə şüarlar görməyə öyrəşdiyimizdən, bu hərflər mənə çox yad göründü. Amma bu, məni narahat eləmədi, hər şeyi dərhal soruşur, balaca uşaq kimi tez-tez sual verir, ətrafla maraqlanırdım.

Maşın şəhərin yaxınlığındakı kənddə bir evə çatanda girişdə qara eynəkli, yaraşıqlı, məğrur, ucaboy bir kişi dayanmışdı, hiss elədim ki, məni gözləyir. Onun Abbas Muğanlı olduğunu hesab elədim. İlk dəfə onu daha gənc vaxtı, sərhədlər söküləndə bizim tərəfin muğan düzündə qonaq olanda görmüşdüm. Abbas qoçaq adamdır, 1991-ci ildə hələ bizdən rədd olub getməmiş sovet əsgərlərindən çəkinməyib biz tərəflərə gəlmiş, yaxın qohumlarını tapmış və sonra geri qayıtmışdı. O vaxt onu muğandan geriyə yola salanda mən də sərhədə qədər getmişdim.

-“Salam, xoş gəlmisən, nə var, nə yox? Dayımgil necədir?”

-“Sağ olun, yaxşılıqdır, sizdə nə var nə yox?”, ilk söhbətimiz belə başladı.

-“Ay kişi, ordan biz tərəflərə gələndə bir xəbər də eləmirsən”, Abbas bunu deyəndə bir qədər qəriblik hiss elədim, elə bildim lap uzaqlardan gəlmişəm. Lakin gözəl Azərbaycan dilində danışan adamlar mənə yaxınlaşdıqca, yavaş-yavaş özümə gəldim, elə bildim bir azdan sonra lap kəndimizin içinə çatacam və bu qəriblik birdəfəlik gedəcək. Elə bildim, bir azdan Laçına gedən yoldan üzü aşağı enəcəm, Dərziliyə piyada gedəcəm. Amma doğrusu bu idi ki, mən kəndlərimizə o taydan baxmağa getmişdim. Əslində xəyalım, orda, özüm isə burdaydım, ömrü boyu dediyimiz “o tayda”.

- “Baba salam, necəsiniz?”- bunu deyən Abbasgilin evində işləyən usta idi. O, məni evin həyətində qarşıladı. İri, zəhmətkeş mənə bir əşya verirmiş kimi əllərini həvəslə qabağa uzatdı.

- “Sağ ol, qardaş, sən necəsən”, dedim. Və görüşü təzəcə bitirmişdik ki, bu usta mənə dərs keçməyə başladı.

- “Baba niyə vuruşmadınız, o torpaqlarda indi erməni gəzir. Biz İraqla müharibədə canımızı qoyduq. Mən özüm bir gecədə gedib neçə əsgərin silahını yatdığı yerdən gətirdim, özlərini də məhv elədim.”

Bundan sonra sözüm qalmadı, dodaqlarım qurumuş, nitqim sanki uzun illər əvvəl yoxa çıxmışdı. Ona izahat verməyə can atdım, bizdə baş verənləri başa saldım, amma sözlərimin faydası olmadı. Bu adam elə hey bizi günahlandırdı. Daha bu mövzuda uzun-uzadı danışa bilmədim və söhbəti dəyişdik.

* * *

Səhər tezdən maşınla Xudafərin vadisinə doğru yollandıq. Araz boyu Qaradağlı kəndindən uzaqlaşan kimi bizim tərəflərin mənzərəsi göz önündə açılmağa başladı. Burada Arazın qolları solğun, dağınıq idi, su yavaş-yavaş axırdı, boynunu bükmüş yılğım kolları nəzarətsiz uşaqlar kimi hara gəldi dağılmışdı. Çayın bu dərdli qolları aşağılarda əyri-üyrü idi. Təbiətin bu vəziyyəti biz tərəfdə dağıdılmış evlərin halı ilə eyni görünürdü.

Horadizdən sonra xarabalığa qalmış kəndləri gördükcə dəhşətə gəlirsən. Adama elə gəlirdi burada tarixin ən dəhşətli və dağıdıcı müharibələri baş verib. Araz boyu kəndlərdə evlərin uçurdulmuş, darmadağın edilmiş divarlarının az bir hissəsi bünövrədə qalmışdı. Tək-tək ağaclar elə bil kiminsə diqqətini cəlb eləmək üçün hündürə qalxmışdı. Gözümü hey gəzdirir, salamat qalmış bir ev axtarırdım, amma bunu görmək mümkün deyildi. Kəndlərin arxasından Cəbrayılın uca, dumanlı dağları baş-başa dayanmış, vüqarını sındırmayan qəhrəmanlar kimi bizə gedən tərəfə baxırdı. Nəgəng, ancaq lal olmuş kimi baxan bu dağların vüqarını hiss eləmək, qəbul eləmək hər adamın işi deyil. Payız olduğuna görə dağların başında çox yerlərdə qatı duman gəzirdi. Telefonumla şəkillər çəkir, özümü inandırmağa çalışırdım ki, guya bu şəkilləri dünyaya göstərsəm, düşmən burdan birdəfəlik gedəcək. Elə bilirdim, qisas almağa gəlmişəm, bu ürəkparçalayan mənzərəni Avropaya, Almaniya və ya Amerikaya göndərsəm, hər şey dəyişər, bir günün içində yurd yerlərimizə qayıda bilərik. Bu dəhşətlərin günahkarları barədə dünya hələ də susur, illər keçsə də, cəzasızlıq hələ də davam edir. Lakin bu mənim arzularımdan başqa bir şey deyildi. Bir az da irəli getmişdik ki, Arazın dayaz bir qolunun üstündən bir sürü qarənquşun səs-küylə qalxdığını gördük. Biz tərəfdə iri, qara bir qartal balasını itirmiş ana kimi fəryad edirdi. Deyəsən həmin gün biz tərəflərin sakini yalnız təlaş içində olan bu canlı idi.

Görünən Arazboyu kəndlər sahibsiz qalmışdı. Çox yerlərdə bir hənirti belə yox idi ki, kolların başında orda-burda fırlanan quşların rahatlığını poza bilsin. O tay - bu tayda elə sakitlik vardı ki, Arazın qollarına sığınmış ağacları özlüyümdə iri bir meşə kimi qəbul etdim. Çayın suları yollar gah görünür, parıldayır, gah da kiçik döngələrin arxasından çıxıb irəli şütüyürdü. Araz boyu yol da hərdən dağların arxasına çəkilir, yenidən Arazın kənarına çıxırdı. Hər dəfə yol dağların arxasına keçəndə elə bilirdim, yad elə düşürəm, yenidən suya tərəf baxanda isə ürəyim təkrar azad olurdu. İnanırdım ki, sürücü mənim nələr düşündüyümü heç zaman bilməyəcək. Bu arada bizim tayda olan mənzərələrdən çox pərişan olmuşdum.

Bir azdan Xələfli stansiyasının qalıqları olan yerə çatdıq. Lakin burada da bir sükut vardı, lal bir sükut. Burada maşından düşüb əllərimi suya uzatdım. Su bir az sərin, bir az bulanıq, bir az da yumşaq idi. Əlimi suya uzadanda su bir qədər də sürətlə axmağa başladı, elə bildim etiraz edir. Diridağın Xələfli stansiyasının arxasından çıxan sərt dağ qayaları bir az da qabağa çıxmışdı, sanki mənimlə salamlaşmaq üçün, nə bilim. Qayalara baxıb özümdən asılı omayaraq əllərimi biz tərəfə uzatdım. Araz bu yerdə bir fırtına kimi sürətlə üzü aşağı hayqırır, yenə öz yatağına qayıdırdı. Sanki buradan keçən hər kəsi yolundan eləyib özü ilə danışmağa çağırır. Dayandığımız tərəf çox rahat görünürdü, bizim tərəfləri isə hələlik düşmən əsir götürüb. Nə edək ki, gedib vuruşmağa hələ imkan yoxdur. Dəmir yolunun az sayda dirəkləri küsmüş uşaqlar kimi yana əyilib. Sankı bizim tərəflərdə hər tərəf əbədi qəm dünyasındadır. Baxdıqca, yas yerinin hissiyatından başqa bir təəssürat anlmırsan, sadəcə susursan, söz tapa bilmirsən qürrələnməyə. Uzaqdan, dağların arxasından dərin bir uğultu səsi gəldi qulağıma. Elə bildim bu, yurd yerlərimizin, torpağımızın etiraz səsləridir. Bu səs uzun müddət qulaqlarımdan getmədi. Bu yerlərin dərdini hər insan götürə bilməz. Bəlkə sular yuyub apara bilər ya yox, bunu bilmirəm. Bunu da indi heç kəs deyə bilmir. Bunu gələcək göstərəcək.



Biz niyə buranı tərk elədik? Niyə biz doğma torpaqları qoyub getdik? Bakının ətrafındakı bataqlıqlara? Kim oldu bu fəlakət və köçdə günahkar? Tarix bunu göstərəcək, kimdir günahkarlar. İndi nə edim, sadəcə İran tərəfdən gəlib öz torpaqlarına oğrun-oğrun baxmaq qaldı mənə və digər həmvətənlərə. Hələ biz tərəflərin dərdini əks etdirən qalın-qalın romanlar yazılmalıdır. Bu Qarabağ dərdi çoxmu çəkəcək, bu vətən həsrəti uzun illərmi çəkəcək, bunu hələlik heç kim deyə bilmir.

*(Davamı var)*